

**GÜLƏR ƏHMƏDOVA,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## HEYDƏR ƏLİYEV UŞAQLARIN DAYAĞIDIR

Çinlilərdə belə bir qarğış var: "Görüm səni keçid dövründə yaşayasan". Keçid dövrünü yaşayan Azərbaycanda bu qarğışın nə demək olduğu yaxşı anlaşılır. Çünki keçən əsrin 80-ci illərin axırlarından, yəni keçid dövrü başlayandan ölkəmiz və xalqımız saysız-hesabsız çətinliklərlə qarşılaşıb. Təbii ki, bu çətinliklərdən ən çox əziyyət çəkən də ən zəif və zəif olduğu qədər də zərif olan sosial təbəqə – uşaqlar idi. "İdi" sözünü ona görə işlədirəm ki, keçid dövrünün çətinlikləri demək olar ki, yavaş-yavaş arxada qalır. Çünki Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra onun böyük zəhmətlər hesabına yaratdığı siyasi sabitlik, cəmiyyətdə eyni zamanda sosial sabitlik atmosferi formalaşdırıb. Ölkəmizdə artıq müharibə getmir. Müharibə getmirsə, demək qan da tökülmür, uşaqlar yetim qalmır, əsir düşmür, girov götürülmür, əlil olmur, öldürülmürlər. Bu baxımdan, doğrudan da, Azərbaycan uşaqları onun prezidentinə borcludurlar. Demək olar ki, bütün Azərbaycan uşaqlarının bir ağızdan "baba" adlandırdıqları Heydər Əliyevin körpələr qarşısında xidməti təkcə bununla bitmir. Heydər Əliyev indi ölkəmizi Qərblə, Avropa ilə inteqrasiyaya aparır. Yəni Avropa dəyərlərinin Azərbaycanda tətbiqinə çalışır. Və bu yöndə də çox ciddi addımlar atılıb, eyni zamanda atılmaqdadır. Avropa dəyərləri sadəcə, demokratik seçkilər, söz azadlığı, azad məhkəmə sistemi və s. demək deyildir. Bu həm də gözəl, firavan həyat deməkdir. Prezidentimiz hakimiyyətə gələndən, ən çox üzərində dayandığı məsələ də budur – ölkə vətəndaşlarının həyat şəraitlərinin, güzəranlarının yaxşılaşdırılması. Millət vəkili İlham Əliyevin çox yerində deyilmiş bir fikri var: İnsan maddi cəhətdən tam təmin olunmazsa, onun müstəqilliyindən danışmağa dəyməz. Bu, doğrudan da belədir. Məhz elə bu səbəbdən də 1996-cı ilədək əgər Prezidentimiz əsas diqqəti ölkədə siyasi sabitliyin yaradılmasına yönəltmişdisə, 96-dan üzü bəri əhalinin sosial durumunun yaxşılaşdırılması istiqamətində gərgin işlər aparılır. Təbii ki, bu da son nəticədə uşaqların həyat şəraitinə öz təsirini göstərir və göstərəcəkdir. Heydər baba öz nəvələri – yəni bütün Azərbaycan uşaqları üçün təkcə müstəqil respublika qurmur, həm də onların gələcəkdə bir vətəndaş, bir şəxsiyyət kimi müstəqil olmalarının da qayğısına qalır. Təbii ki, bu prosess Heydər Əliyevin bütün stpateji məsələlərdə tətbiq etdiyi kimi, ölçülüb-biçilmiş, düşünülmüş şəkildə aparılır.



MDB ölkələri içərisində ilk dövlətlərdən biri olaraq Azərbaycanda "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında dövlət proqramı" hazırlanıb. Bu proqram Prezidentin 1999-cu il 29 iyul tarixli "Azərbaycan respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsilə bağlı tədbirlər planı" haqda 169 nömrəli fərmanının əsasında hazırlanıb. Həmin proqramın artıq bir hissəsi həyata keçirilib və bir hissəsi də keçirilməkdədir. Ölkəmizdə uşaqlarla iş sahəsində dövlət siyasətini müəyyənləşdirən milli konsepsiya demək olar ki, artıq hazırdır. Bu konsepsiyanın uğurla həyata keçirilməsi üçün uşaqlar haqqında statistik məlumatların toplanması sistemi işlənib, dövlət və qeyri-dövlət uşaq təşkilatlarının qarşılıqlı fəaliyyəti təşkil edilib. Uşaq və ailə istirahətinə dövlət yardımı proqramının hazırlanması, uşaq və anaların sağlamlığı haqqında proqramın hazırlanaraq həyata keçirilməsi, uşaq istirahət düşərgələri, sanatoriyalar və s. müəssisələrin fəaliyyətinin, aşağı templə olsa da, bərpa edilməsi, uşaqların tibbi və sosial sığorta sisteminin, təkmilləşdirilməsi, sığorta sistemində uşaqların mənafeyini qoruyan tədbirlərin həyata keçirilməsi, yuxarıda adlarını çəkdiyimiz milli konsepsiyanın reallaşması yolunda atılan addımlardır. Bəllidir ki, torpaqlarımızın işğalı, bir ideoloji quruluşdan digər ideoloji quruluşa keçid, iqtisadi çətinliklər, istər-istəməz ölkədə uşaqlarla bağlı bir çox neqativ halların yaranmasına şərait yaradıb. Bir çoxları bundan istifadə edərək, uşaqları alqı-satqı obyektinə çevirmək istəyirlər. Onlar körpələri ucuz işçi qüvvəsi kimi istismar edir, onları pis yola sürükləyir, narkomanlığa və cinayətə cəlb edirlər. Hətta iş o yerə çatıb ki, özlərini demokrat və vətənpərvər adlandıran ayrı-ayrı partiya liderləri uşaqlardan siyasi alət kimi də faydalanmaq istəyirlər. Onlar körpələri qanunsuz mitinq və piketlərə cəlb edərək, bu zərif məxluqları polis dəyənəyi ilə üz-üzə qoymaq istəyirlər. Dövrümüzün bir reallığı da budur ki, indi çətin tərbiyə olunan əlil və yetim uşaqlarla yanaşı, indiyədək bizə yad olan xüsusi bir təbəqə əmələ gəlib ki, bu da küçə uşaqlarıdır. Bunun qarşısını almaq, həmin uşaqların normal həyata qayıtmalarını təmin etmək üçün Prezidentimiz təhsildən yayınma hallarının müəyyənləşdirilməsi və bunun qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi haqda Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Daxili İşlər Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti qarşısında məsələ qaldırıb. Onlardan tələb edilib ki, valideynini itirmiş dövlət himayəsində olan uşaqların həyat şəraitini yaxşılaşdırmaq, təhsil və tərbiyəsinə nəzarəti gücləndirmək məqsədilə xüsusi qrup yaratsınlar. Dövlət başçısı yetkinlik yaşına çatmamışların fahişəliyə, spirtli içki və narkotik maddələrdən istifadə olunmasına cəlb edilmələrinin qarşısının alınması ilə bağlı proqram hazırlanması haqda göstəriş verib. Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması yönündə də addımlar atılmaqdadır. Bu tədbirlərin həyata keçirilməsi üçün Prezidentimizin göstərişi ilə "Küçə uşaqlarına dövlət himayəsi" proqramı hazırlanıb. Uşaq problemləri ilə maraqlanmayanların bəlkə də kənardan

dövlət başçısının bu yöndə gördüyü işdən o qədər də xəbərləri yoxdur. Ancaq bu problemlə az-çox maraqlananlar yaxşı bilirlər ki, uşaqlarımızın sağlam və qayğısız böyüməsi üçün elə bir məsələ yoxdur ki, Prezidentin diqqətindən kənarda qalsın. Hazırda Azərbaycan uşaqlarının qarşılaşdığı problemlərdən biri də asudə vaxtların səmərəli təşkilidir. Sovet dövründən qalma, uşaqlar üçün nəzərdə tutulmuş istirahət və sağlamlıq düşərgələri, idman kompleksləri dağıldığından körpə və yeniyetmələrin asudə vaxtlarını səmərəli keçirməsi 90-cı illərin ortalarına qədər müşkülə çevrilmişdi. Amma son bir neçə ildə bu yöndə də əsaslı dönüşlər nəzərə çarpmaqdadır. Çətinliklə də olsa, uşaq-yay istirahət düşərgələri, bədii yaradıcılıq kompleksləri onları qamarlayıb ələ keçirmiş ayrı-ayrı özəl qurumların əllərindən alınır və yenidən öz keçmiş fəaliyyət sahələrilə məşğul olurlar. Təbii ki, bu da cənab Heydər Əliyevin qəti tapşırığı sayəsində həyata keçirilir. Bu gün sevinc hissi ilə demək olar ki, Azərbaycanda uşaq və gənclərin idmana cəlb edilməsi, onların bu sahədəki uğurları bir çox hallarda sovet dövründə olduğundan belə yaxşıdır. Bu da təbii ki, idmanın maddi-texniki bazasının yaradılması, idmançılara göstərilən qayğı ilə bağlıdır. Artıq Azərbaycanın hətta bölgələrində belə elə idman kompleksləri var ki, keçmiş SSRİ-nin paytaxtı Moskvadakından, nəinki geridə qalır, hətta texniki təchizat baxımından qabaqdadır. Bu da Möhtərəm Prezidentimizin göstərişi və Milli Olimpiya Komitəsinin səyləri sayəsində reallaşıb. Millətimizi sağlam, güclü və qüdrətli görmək istəyiriksə, təbii ki, uşaqlarımız idmanla yaxından məşğul olmalıdırlar. Prezidentimizin idmanla bağlı həyata keçirdiyi siyasətdə də məhz bu xətt açıq-aydın hiss olunur. Heydər Əliyevin uşaqlara diqqətinin göstəricisini əks etdirən daha bir məqam "vunderkind" adlandırılanlarla bağlıdır. Dövlət başçısı istedadlı uşaqların tapılıb üzə çıxarılması, onların qorunması, daha da inkişaf etmələri üçün tədbirlər görülməsi istiqamətində də böyük işlər görüb və görməkdədir. Heç təsadüfi deyil ki, belə uşaqlara Prezident öz fondundan təqaüd verir. İndiki iqtisadi çətinlik dövründə bu təqaüd bir tərəfdən maddi stimul rolu oynayırsa, digər tərəfdən də onun böyük mənəvi əhəmiyyəti var. Yəni bu təqaüd digər uşaqları da çalışqan, hazırlıqlı və bilikli olmağa həvəsləndirir. Ölkəmizdə uşaqlar, yəni 18 yaşına qədər olanlar əhalinin 38,3 faizini təşkil edir. Bu da təqribən 3,5 milyon nəfər deməkdir. Onlardan 4 yaşa qədər olanlar 28,5 faiz, 5-9 yaş arasında olanlar 29,6 faiz, 10-14 yaşlılar 27,2 faiz, 15-18 yaşlılar isə 14,4 faiz təşkil edir. Bu uşaqların təqribən 25 min nəfəri əlildir. 20 mindən artıq uşaq yetim və yaxud da ki, valideyn himayəsindən məhrumdur. Müharibə vəziyyətində olan və iqtisadi çətinliklər keçirən bir ölkə bu qədər uşağın sağlam və firavan böyüməsi problemi kimi böyük problemlə üzləşib. Əgər nəzərə alsaq ki, bizim 300 mindən artıq körpəmiz də qaçqın və məcburi köçkün ailələrində böyüyürlər, onda Azərbaycanın uşaqların sağlam və firavan böyümələri üçün hansı çətinliklərlə üzləşdiyini təsəvvür etmək çətin deyil. Bütün bunlara baxmayaraq, Azərbaycan uşaqlarının həm sosial, həm sağlıq



durumları postsovet məkanındakı əksər ölkələrindəkindən daha yaxşıdır. Bu da təbiidir. Çünki onlar digər həmyaşıdlarından daha çox qayğı ilə əhatə olunublar. Nəhəng, nəhəng olduğu qədər də qayğıkeş bir babanın - Heydər Əliyevin qayğısı ilə əhatə olunublar. Bunu uşaq problemlərilə məşğul olan ayrı-ayrı beynəlxalq qurumların hesabatları da təsdiqləyir. Böyüklərdən fərqli olaraq, hiylə, qərəz, paxıllıq nə olduğunu bilməyən körpələr naxələf olmurlar. Onların ağlı az kəssə də, Prezidentimizin onlar üçün sərf etdiyi titanik əməyi yetərincə qiymətləndirmək imkanları olmasa da, hər halda "Heydər baba"nın varlısına-kasıbına, valideyninin kimliyinə məhəl qoymadan bütün Azərbaycan uşaqlarını necə sevdiyini bilməmiş deyillər. Çünki sevgi elə şeydir ki, onu duymaq üçün ağıl və məntiqdən çox, həssas ürək tələb olunur. Cocuq ürəyi qədər həssas ürək də təbii ki, yenə cocuq ürəyidir. Elə bu səbədən də valideyninin kimliyindən, varlı və kasıblığından asılı olmayaraq, bütün Azərbaycan uşaqları qayğıkeş Prezidentimizi "Heydər baba" deyə çağırırlar. Yeri gəlmişkən, dünyanın elə bir ölkəsi yoxdur ki, oradakı uşaqlar öz prezidentlərini doğma babalarıtək "baba" deyib çağırsınlar. Azərbaycan uşaqları cənab Heydər Əliyevi ona görə "Heydər baba" deyərək səsləyirlər ki, yuxarıda vurğuladığımız və Prezidentin özünün də uşaq günündə dediyi kimi, o, Azərbaycanın bütün körpələrinə öz doğma nəvəsi kimi yanaşır, onların qayğısı və problemlərilə yaşayır. Bizim xalqımız qədirbilən xalqdır. Mən bu fikirdəyəm ki, illər keçəcək, bu gün Heydər Əliyevə "baba" deyənlərin özləri baba olacaqlar. Ancaq o babaların nəvələri də Heydər Əliyevdən söz düşəndə onu "Heydər baba" deyə çağıracaqlar. Bu mənada Azərbaycan Prezidenti təkcə bugünkü Azərbaycan uşaqlarının deyil, eyni zamanda gələcəkdə doğulacaq minlərlə, milyonlarla körpələrimizin də babası olaraq qalacaq. Tarix və Azərbaycan qaldıqca qalacaq!